DÖVLƏT VERGİ XİDMƏTİ

# Həyatın yığım sığortası və pensiya sığortası ilə bağlı gəlir vergisindən azadolma üzrə bunları bilməlisiniz!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2025-ci il tarixdən etibarən**

3 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə **qeyri-dövlət sektoruna aid edilən** işəgötürənin sığortaolunanın vergiyə cəlb olunan gəlirlərinin 50 faizindən çox olmayan hissəsindən Azərbaycan Respublikasının sığortaçılarına ödədikləri sığorta haqları fiziki şəxslərin gəlir vergisindən azaddır.

**Nə dəyişdi?**

Qanunvericiliyə edilmiş dəyişiklikdən sonra həyatın yığım sığortası və pensiya sığortası üzrə Azərbaycan Respublikasının sığortaçılarına yalnız qeyri-dövlət sektoruna aid edilən işəgötürənin ödədiyi sığorta haqları fiziki şəxslərin gəlir vergisindən azad edilmişdir.

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

**Əlavə olaraq bilməlisiniz ki,**

Qeyd edilən dəyişikliklər

- **2025-ci il yanvarın 1-dən sonra** bağlanmış həyatın yığım sığortası və pensiya sığortası müqavilələri üzrə ödənilən sığorta haqlarına münasibətdə tətbiq edilir.
- Qeyri-dövlət sektoruna aid edilməyən vergi ödəyicilərinə münasibətdə 2025-ci il yanvarın 1-dək 3 ildən az olmayan müddətə bağlanmış və həmin tarixədək **3 ili tamam olmamış** həyatın yığım sığortası və pensiya sığortası müqavilələri üzrə 2025-ci il yanvarın 1-dək qüvvədə olan vergi güzəşti yalnız həmin müqavilələr bağlandığı tarixdən 3 il ərzində ödənilən sığorta haqlarına tətbiq edilir.
- Qeyri-dövlət sektoruna aid edilməyən vergi ödəyicilərinə münasibətdə 2025-ci il yanvarın 1-dək 3 ildən az olmayan müddətə bağlanmış və həmin tarixədək **3 illik müddəti tamam olmuş** həyatın yığım sığortası və pensiya sığortası müqavilələri üzrə 2025-ci il yanvarın 1-dək qüvvədə olan vergi güzəşti yalnız 2025-ci il yanvarın 1-dək ödənilən sığorta haqlarına tətbiq edilir.

**BAKI — 2025**